# Rənglər dünyasının istedadlı yolçusu




**Ölkəmizdə gənc rəssamlarımızın öz potensiallarını üzə çıxarmaları üçün bir çox incəsənət məktəbləri, qalereyalar fəaliyyət göstərir. Bakıda və regionlarda keçirilən müxtəlif sərgilərdə onlar üçün geniş imkanlar yaradılır. Bu gün rəssamlıq sahəsində həvəslə çalışan, öz uğur yolunu tapan gənc rəssamlarımız az deyil. Onlardan biri də Fuad Musayevdir.**

Fuadın 24 yaşı var. O, 2007-ci ildə Xətai rayonundakı 55 saylı tam orta məktəbdə ilk təhsilini alıb. Fuadın rənglərə olan sevgisi lap kiçik yaşlarından özünü göstərib. Yaradıcılığa onu cəlb edən rəngarəng əşyaların rəsmini çəkməklə başlayıb desək, yanılmarıq. Valideynləri Fuadın 6 yaşında ikən evin divarlarında çəkdiyi günəş təsvirini görəndə artıq anlayıblar ki, onu məhz bu sahəyə yönləndirmək, rəssamlığın sirləri ilə daha yaxından tanış etmək lazımdır. Elə həmin ildən o, rəsm dərnəyinə yazılıb və ilk rəngkarlıq dərsləri almağa başlayıb.

İstedadlı gəncin ilk müəllimi Mətanət Aslanova olub. Fuad Mətanət xanımın ən sevimli şagirdlərindən biri olub. Müəllimi bu gün də ondan danışanda üzünə təbəssüm qonur. İştirak etdiyi uşaq sərgilərində öz dəst-xətti ilə seçilməyi bacaran Fuadın istedadı artıq görkəmli rəssamların diqqətini cəlb etmişdi. “Xocalı harayı” adlı sərgidə Xalq rəssamı Arif Hüseynov onun üstün keyfiyyətlərini kəşf edib.

Öz əzmi və bacarığı sayəsində bir rəssam kimi yetişməyi bacaran Fuad daim yaradıcılıq axtarışında olaraq öyrənməyi, yeniliklər kəşf etməyi sevir. O, 2016-cı ildə Əzim Əzimzadə adına Rəssamlıq Kollecinə, oranı bitirdikdən sonra isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dekorativ-tətbiqi sənət fakültəsinə daxil olur. İstedadlı gənc burada xalq rəssamları Arif Hüseynov, Siruz Mirzəzadə, Əməkdar rəssam Məmmədhüseyin Hüseynov, Ədhəm Yusubov, fakultənin baş müəllimi Emin Ələkbərovdan dərslər alır, rəssamlığın peşəkar sirlərinə dərindən bələd olur. 2024-cü ildə akademiyada təhsilini uğurla tamamladıqdan sonra Əmək və Əhalinin



Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin istedadlı benefisiarı kimi çalışır, burada mərkəzin dəstəyindən, sosial inkişaf proqramlarından yararlanır.

Fuad Musayev 2024-cü ildən DOST-un İsmayıllı rayonunda yerləşən “Dost evi” filialında təlimçi kimi fəaliyyət göstərir. Rəssamlıq yaradıcılığına uğurla davam edən gənc bu ilin əvvəlindən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür.

Fuadın yaradıcılıq yoluna nəzər salsaq, görərik ki, o, rəssamlığın bir çox sahəsi ilə məşğul olmağı sevir. Özündə keramika, xalça, qobelen və s. cəmləşdirən dekorativ-tətbiqi sənətə daha çox bağlıdır. Özünü daha da təkmilləşdirməyi qarşısına məqsəd qoyan gənc rəssam böyük məharətlə xalça eskizləri çəkir, qobelenlər hazırlayır, keramik qablara müxtəlif təsvirlər vurmaqla insanların gözünü oxşayır. Onun əsərlərindən kətan üzərində yağlı boya texnikası ilə təvir etdiyi “Səhra gözəlləri”, “Bağımın narları”, “Qayıqlar”, “Sahil küləyi”, “Kız külesi”, “Düşüncələr” kimi rəngkarlıq əsərləri, “Azad Şuşam”, “Novruz qızı”, “Bənövşəli vaza”, “Xalça naxışları” adlı keramika əsərlərini sadalaya bilərik. Fuadın yaradıcığında milli ornament və detallardan yerli-yerində istifadə etdiyi aydın şəkildə görünür.

Bu zamana qədər o, çoxsaylı sərgilərdə uğurla iştirak edib, bir çox diplom, sertifikat və mükafatlara sahib olub. Hər zaman fiziki məhdudiyyətli uşaqlara, gənclərə dəstək göstərib. İştirak etdiyi satış-sərgilərdən əldə etdiyi gəliri məhdudiyyətli uşaqlara ianə edib, onların könlünü sevindirib.

Fuadın gələcək məqsədi tutduğu bu yolda özünü daha da kamilləşdirmək və yeni uğurlara imza atmaqdır.

***Ziyarət CABAROVA-QƏHRƏMANOVA,***
***Azərbaycan Dövlət Rəsm Qalereyasının böyük elmi işçisi***

Xalq qəzeti .- 2025.- 5 aprel (№65).- S.10.